AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ

MAGİSTR DİSSERTASİYASININ YERİNƏ YETİRİLMƏSİ, ELMİ-TƏDQİQAT VƏ ELMİ-PEDAQOJİ TƏCRÜBƏLƏRİN TƏŞKİLİNƏ DAİR METODİK GÖSTƏRİŞLƏR

TOPLUSU

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
TƏHSİL PROBLEMLƏRİ İNSTİTUTU
AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ
«MAGİSTR HAZIRLIĞI MƏRKƏZİ»

MAQİSTR DİSSERTASİYASININ YERİNƏ YETRİLMƏSİ, ELMİ-TƏDQİQAT VƏ ELMİ-PEDOQOJİ TƏCRÜBƏLƏRİN TƏŞKİLİNƏ DAİR

METODİK GÖSTƏRİŞLƏR

TOPLUSU

BAKI 2007

ADİU-nun rektoru, i.e.d., professor **Ş.H.HACIYEVİN**
ümumi redakəsi ilə

METODİK GÖSTƏRİŞLƏR TOPLUSUNU HAZIRLAYANLAR

ADİU-nun Magistr hazırlığı mərkəzinin
direktoru, i.e.n., dosent **H.A.İsrafilov**
ADİU-nun «Magistr hazırlığı mərkəzi»nin
direktor müavini, i.e.d. **E.M.Hacızadə**

Magistr dissertasiyasının yerinə yetrilməsi, elmi-tədqiqat və elmi-pedoqoji təcrübələrin təşkilinə dair metodik göstərişlər toplusu

Bakı: «İqtisad Universitet nəşriyyatı», 2007

MAGISTR DISSERTASIYASININ YERINƏ YETRILMƏSINƏ DAİR

METODİK GÖSTƏRİŞ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin
Elmi-Metodik Şurasının «İqtisadiyyat»
bölməsinin «13» «mart» 2006-cı il tarixli
iclasının qərarı ilə təsdiq edilmişdir /*protokol №41*/

RƏYÇİLƏR

ADİU-nun «İqtisadi kibernetika» kafedrasının müdiri,
i.e.d., professor **B.I.Musayev**

Azərbaycan Dövlət Neft Akademiyasının Magistratura
bölməsinin dekanı
i.e.n., dosent **V.T.Mustafayev**

Metodik göstəriş magistr proqramının yerinə yetrilməsi tələblərinə uyğun olaraq magistrantlara magistr dissertasiyalarının mövzu seçimini, hazırlıq işlərinin təşkilini, məzmununun işlənilməsini reallaşdırmaq, onun yazılışı və müdafiə olunmasını istiqamətləndirmək məqsədi daşıyır.

Metodik göstəriş magistr dissertasiyasının hazırlanması, təsdiq olunması və müdafiəsi qaydaları haqqında mövcud əsasnamənin tələblərindən irəli gəlir və onun başlıca müddəalarını əks etdirir.

Metodik göstəriş magistrantlar, magistr proqramı və dissertasiya işinin elmi rəhbərləri, resenzentlər, məsləhətçilər və həmçinin özünün elmi yaradıcılıq diapozonunu genişləndirmək istəyində olanlar üçün nəzərdə tutulur.

Hələ 10 il öncə Azərərbaycanın ali təhsil müəssisələrində diplomlu mütəxəssisələr hazırlanmaqda idi. Həmin sistemdə tədrisin istiqamətindən asılı olaraq təhsil prosesi 4-6 il davam edirdi. Alınmış diplom hər yerdə eyni qüvvə və mahiyyətə malik idi. Fərq isə, diplomu vermiş ali təhsil müəssisəsinin məhşurluğu və nufuzu nəzərə alınmaqla müəyyənləşdirilirdi. Lakin Azərbaycanın dövlət müsəiqilliyinin bərpası ilə ölkədə özəl təhsil müəssisələri təsis olunaraq özünün geniş tətbiqini tapdı. Bu müddət ərzində özəl universitetlərlə yanaşı eyni zamanda təhsilin bakalavr və magistr təsnifatında iki pilləli sisteminə keçid də formalaşdı. Bununla belə, təhsilin ilk pilləsi əsas ağırlıq yükünü öz üzərinə götürsə də respublikanın müasir əmək bazarı hələ ki, bakalavr diplomunu tam təminatlı ali təhsil sənədi keyfiyyətində mənimsəməmişdir. Məhz buna görə də, işə götürənlər və təhsil xidməti istehlakçıları ali təhsil kamilliyinə əsasən «Magistr» pilləsinin diplomları keyfiyyətində yanaşırlar. Bu reallıq isə respublikamızda «Magistr» proqramına olan tələbin hər il artması ilə müşaiyət olunur.

75 ilə yaxın tarixi ənənələri olan Azərbaycan Dövlət İqtisad Universiteti özünün təhsil proqramlarına daim inkişaf strategiyası baxımından yanaşmış, tədris prosesinin təkmilləşdirilməsi istiqamətində xüsusi keyfiyyət dəyişiklikləri ilə fərqlənmişdir. Bu ənənəyə sadiq qalaraq vəzifələrimizin təməlində respublikanın sosil-iqtisadi tərəqqisini hərtərəfli təmin edən, elmin, təhsilin inkişafı istiqamətində yeni tədris texnologiyalarını mənimsəmiş, hərtərəfili bilik və hazırlığa malik, birbaşa fəaliyyət pultu arxasına əyləşmək iqtidarına malik peşəkar mütəxəssislərin

hazırlanması missiyası dayanır. İnkişafı sürətlənən təhsil kəskin olaraq həm də, daim təkmilləşən mütərəqqi normativ-hüquqi əsaslar tələb edir. Bu baxımdan da müəlliflər Azərbaycan Dövlət İqtisad Universitetinin magistrantları üçün elmi yaradıcılığın ilk profesional metodoloji reqlamentasiya sənədi olan magistr dissertasiyasının yazılışı üzrə müvafiq metodik göstəriş hazırlayaraq yüksək tələbli auditoriyanın sərəncamına təqdim edirlər.

Mövcud metodik göstəriş magistrantlarla yanaşı, həm də elmi yaradıcılıq pilləsi ilə ilk addımlarını ataraq müvafiq istiqamətdə irəliləyənlərin maraqlarına hesablanmışdır. Bununla belə onun əsas məzmununu magistr dissertasiyasının yazılış və tərtibat metodikası ifadələndirir.

Müəlliflər hesab edirlər ki, Azərbaycan Respublikasında Avro-Atlantik məkanın standartlarına tamlıqla cavab verən magistrlərin hazırlanması istiqamətində başlanğıc təsisatlandırıcı əməli işlər artıq realaşmışdır. Lakin bununla belə möhtəşəm Boloniya prosesinə tam hüquqlu qoşulmada da geniş miqyasda müqabil işlərin görülməsinə böyük ehtiyac duyulur. Bu ehtiyacların ödənilməsindən öncə isə hər bir ölkə vətəndaşının, xüsusən də tələbə-məktəbli gənclərin, elmi yardıcılığa peşə səviyyəsində səy edənlərin magistr pilləsi ilə ətraflı tanışlığı mühüm şərtlərdəndir. Bu tanışlıqdan sonra isə təhsili yüksəltmək, magistrant olmaq və ilk elmi dissertasiyanı yazmaq istəyi daha da artacaqdır.

«Magistr» **sözü latın mənşəli olub *müəllim, mürəbbi, rəhbər* mənalarını ifadə edir. O, həm də, «qrosmeyster», «maestro» və diğər bu kimi sözlərin paroniminin əsasında dayanır. Qədim Romada «Magistr» dərəcəsi mühüm vəzifə səlahiyətlərinə görə verilərdi. Bizans imperatorluğında bu ad yüksək məmur rütbəsi tituluna müvafiq idi. Orta əsrlərdə isə, «Magistr» məfhumu müəllim və ustad adına sinonim kimi qəbul edildi. Sonrakı sivilizasiya mərhələsində «Magistr» Qərbi Avropa universitetlərində doktor elmi dərəcəsi ilə müqaisədə nisbətən aşağı elmi pilləni ifadə etdi.**

Çağdaş İngilis-Amerikan təhsil sistemində «Magistr» rütbəsi elmlər doktoru ilə bakalavr arasında aralıq dərəcə vəziyyətini səciyyələndirir. Konkret muasir mənada isə «Magistr» geniş erudisiyalı və hazırlıqlı, analitik-tədqiqat təfəkkürünə malik mütəxəssis, elmi yaradıcılıq metodoloqiyasının bilicisi, qabaqcıl informasiya texnoloqiyaları istifadəçisi və daşayıcısı, konsultativ və yaradıcı fəaliyyətli bir mütəxəssisdir.

I. MAGİSTR DƏRƏCƏSİNİN «ÜMUMİ İQTİSADİYYAT» PEŞƏ İSTİQAMƏTİNDƏ MƏNİMSƏNİLMƏSİ QARŞISINDA QOYULAN TƏLƏBLƏR

«Magistr» dərəcəsinin mənimsənilməsi hər bir ixtisas üzrə müvafiq proqram əsasında həyata keçirilir.

Magistr proqramının ümumi prinsipləri ilə yanaşı onun ümumi iqtisadiyyat ixtisasları üzrə spesefik xüsusiyyətləri və tələbləri də vardır. Bu tələblər sırasına, başlıca olaraq iqtisadi inkişafın qanunauyğunluqlarını dərk etmək, nəzəri və metodoloji əsaslarını öyrənmək, müasir dünya iqtisadi sistemlərində mövsud çoxşaxəliliyi anlamaq, Azərbaycan və dünya iqtisadiyyatının strukturunun və tərəqqi meylinin quruluş təqdimatını, dövlətin sosial-iqtisadi inkişaf mərhələlərini, iqtisadi təhlil və təsərrufat prosesslərinin mikro və makro səviyyədə elmi metodoloqiyasını və metodikasını bilmək, qabaqcıl kompyüter texnikasından iqtisadi məsələlərin tədqiqi istiqamətində istifadə eimək kimi bacarıq və keyfiyyətlər daxildir.

II. MAGİSTR DİSSERTASİYASI İŞİNİN MƏQSƏDLƏRİ

Magistr dissertasiyası iddiaçının /*magistrantın*/ müstəqil elmi və pedoqojı işə hazırlığını nümayiş etdirən, elmi rəhbərin göstəriş və tövsiyyələri əsasında magistr dərəcəsi almaq üçün işlənmiş elmi-tədqiqat və təcrübi-konstruktur işidir.

Magistr dissertasiyasının hazırlanması və müvəffəqiyyətlə müdafiəsi magistr hazırlığı proqramının yerinə yetirilməsinin məcburi şərtidir. Onun elmi səviyyəsi həmişə tədris edilən proqramın tələblərinə cavab verməlidir.

Magistr dissertasiyası magistrantın elmi potensialını, onun iqtisadiyyat və maliyyə sferasında sərbəst tədqiqat aparmaq, təşkilatçılıq bacarığını aşkara çıxarmaq, müasir metod və yanaşmalardan istifadə etməklə problemin tədqiqi sahəsində nəticələri müəyyənləşdirmək, arqumentlərə söykənən əsaslandırılmış tövsiyyə və təkliflər irəli sürmək missiyası daşıyır.

III. MAGİSTR DİSSERTASİYASI MÖVZULARININ SEÇİLMƏSİ VƏ TƏSDİQ OLUNMASI

Magistr dissertasiyasının mövzu seçimi magistrantın şəxsi elmi və praktiki maraqlarında uyğun olaraq sərbəst təmin edilir. Bu məqsədlə ixtisas kafedralarında müvafiq istiqamətli dissertasiya mövzuları hazırlanır, universitet rektorunun müvafiq əmri ilə təsdiq edilərək magistrantlara təqdim olunur. Magistrant özü də mövzu təklif edə bilər. Bu zaman magistrant tərəfindən tədqiqatın məqsədəuyğunluğu və aktuallığı əsaslandırılmalıdır. Magistr proqramının rəhbəri mövzu seçimində magistranta lazımi köməklik göstərməyə borcludur.

Mövzu seçimindən sonra magistrant, oriyentirli olaraq işin adını formalaşdırır və bu barədə magistr proqramı rəhbərinə məlumat verir. Magistr proqramının rəhbəri isə bu adı müvafiq reyestrə köçürür. Bu isə dissertasiyanın elmi rəhbərinin təyinatı üçün əsas olur.

Magistr dissertasiyasının mövzusu və elmi rəhbəri tədrisin birinci ilində - I semestrdə 15 dekabr tarixindən gec olmayaraq rektorun əmri ilə rəsmiləşdirilir. Kafedralar magistr dissertasiyasının mövzusu və elmi rəhbərin təyinatını 15 noyabra kimi başa çatdırmalı və Magistr hazırlığı mərkəzinin Elmi Şurasının təsdiqinə verməlidirlər.

Magistr dissertasiyası üzrə mövzular aktual olmalı, əsasən ölkə iqtisadiyyatı, onun sahələrinin müasir vəziyyəti və inkişaf prespektivləri ilə uyğunluq təşkil etməlidir. Mövzu seçimi magistrantın təhsil aldığı ixtisas sahəsinə uyğun olaraq çox geniş əhatə dairəli problemi hədəf tutmamalıdır.

Mövzunun adlanışı zamanı işin əsas ideyasının konkret və maksimal obrazda təcəssümünə nail olunmalıdır.

Dissertasiyanın tematikası tədqiqatın həm nəzəri və həm də praktiki istiqamətlərini əhatə etməlidir. Nəzəri isçtiqamətlərin seçimi yeni konseptual baxışlardan istifadədə tədqiq edilən sahənin nəzəri və metodoloji əsaslarında oriyentasiya olunaraq özünün müəyyən elmi yenilik, istiqaməti və tədqiq metodikası ilə fərqlənməlidir. Dissertasiya işinin praktiki hissəsi uyğun metodoloji əsas və yanaşmada peşəkarlıq sahəsində müvafiq model işləmələri üzərində magistrantın praktiki məsələləri həll etmək bacarığını nümayiş etdirməlidir.

IV. MAGİSTR DİSSERTASİYASININ MƏZMUNU VƏ ONUN STRUKTURUNA QOYULAN TƏLƏBLƏR

Dissertasiya işi ixtisas üzrə elmi-təcrübi ədəbiyyatın dərin öyrənilməsi, müvafiq statistik informasiyanın geniş təhlili əsasında yerinə yetrilir.

Hər bir dissertasiya işində problemin qoyuluşu və onun işlənməsi iqtisad elminin və müvafiq təcrübənin aktual inkişaf meylləri ilə rabitəli şəkildə həllini tapmalıdır.

Magistr dissertasiyası şəxsi tədqiqat tövhələrində əks olunan daxili vəhdətə malik quruluşda və məntiqi ardıcıllıqda magistrantın açıq müdafiə üçün irəli sürdüyü elmi-nəzəri və praktiki əhəmiyyətli müddəa və nəticələrin məzmununu əhatə etməlidir.

Magistr dissertasiyasının kompazisiyası

1.Titul vərəqi.
2.Mündəricat.
3.Giriş.
4.Əsas hissənin fəsilləri və paraqrafları.
5.Nəticə və təkliflər.
6.İstifadə olunmuş ədəbiyyat siyahısı.
7.Əlavələr.
8.Annotasiya: */rus və ingilis dilində/*.

Magistr dissertasiyasının bölmələrinin məzmunu

Titul vərəqi dissertasiya işinin birinci səhifəsi kimi müəyyən edilmiş qaydada tərtib olunur (*Titiul vərəqi əlavə 1-də verilmişdir*).

Mündəricat titul vərəqindən sonra gəlir və səhifələri göstərilməklə dissertasiya işinin əsas başlıqlarını əhatə edir: Giriş, I Fəsil, II Fəsil, III Fəsil və onların paraqrafları, Nəticə və təkliflər, İstifadə olunmuş əbəbiyyat siyahısı, Əlavələr və rus və ingilis dillərində olmaqla Annotasiya.

Giriş hissəsi başlıca olaraq aşağıdakıları əhatə edir:

- Mövzunun aktuallığı;
- Tədqiqatın predmet və obyekti;
- Tədqiqatın əsas məqsədi və vəzifələri;
- Tədqiqatın informasiya bazası və işlənməsi metodları;
- Tədqiqatın elmi yeniliyi;
- Tədqiqatın praktiki əhəmiyyəti.

Mövzunun aktuallığı bölümündə mövcud iqtisadi sistem və reallıqlar baxımından problemin qoyuluş məsələlərini əks etdirərək, onun tədqiqi zəruriliyi əsaslandırır. Burada problemin mahiyyəti, fərqləndirici xüsüsiyyətləri, həll

mürəkkəbliyi və çətinlikləri, elmi-təhlil tələbliliyi və öyrənilməsi istiqamətindəki aspektlər əksini tapır.

Tədqiqatın əsas məqsədi və vəzifələri bölümündə tədqiqatın məqsədi və ona nail olmanın imkan və üsulları öz əksini tapır. Məqsəd problem məsələnin fundomental və əməli-tətbiqi xarakterini əsaslandıraraq ifadə olunur. Tədqiqatın vəzifələri dairəsi dissertasiya işinin strukturundan irəli gələrək konkret istiqamətləri səciyyələndirir və adətən: öyrənilir, müəyyən edilir, təyin olunur, şərhi verilir, göstərilir, araşdırılır, ümumiləşdirilir və sair bu kimi ifadə sonluqları əsasında formalaşdırılır.

Tədqiqatın obyekti və predmeti: Obyekt problem situasiyanı yaradan və öyrənilməsini şərtləndirən proses və hadisəni, predmet isə həmin obyektin hüdudlarında olanları əhatə edir. Obyekt və predmet elmi-tədqiqat prosesinin kateqoriyaları olaraq öz aralarında ümumi və xüsusi nisbəti bölüşürlər. Obyektdə tədqiqat predmetinə xidmət göstərən hissə ayrılır. Predmet isə tədqiqat işinə təyinat verir və bu baxımdan da dissertasiyanın tütul vərəqində təsbit olunan adla uzlaşır.

Tədqiqatın informasiya bazası və işlənməsi metodları bölümündə faktiki materialın əldə edilməsi, informasiyaların rəsmi, elmi, ədəbiyyat və biblioqrafik mənbələri, tədqiqat instrumentariyası və nəzəri-metodoloji əsasları göstərilir.

Tədqiqatın elmi yeniliyini orjinal elmi nailiyyət və praktiki tətbiq dəyərlərini ifadə edərək bir cümlə əsasında formalaşdırılır. Onun təsnifat strukturu verildikdə isə hər bir istiqamət üzrə ayrıca təqdimatda verilir. Tədqiqatçı çalışmalıdır ki, hər bir fəsil üzrə həqiqiliyi əsaslandırılmış müəyyən elmi yeniliyə nail olsun və onlar tədqiqat vəzifələrindən sayca az olmaqla fərqli məzmun ifadə etsin.

Burada elmi-əməli nəticəlik: «ümumi yanaşmalardan fərqlənir», «daxil edir», «tətbiq edilməklə alınmışdır», «imkan verir» kimi ifadələr quruluşunda əsaslandırılaraq təqdim olunur.

Tədqiqatın praktiki əhəmiyyəti bölümündə dissertasiyanın mahiyyətindən irəli gələn ümumi frazalarla yanaşı, eyni zamanda, onun konkret və aydın təcrübi əhəmiyyətliliyi, mümkün qədər tətbiq sferası, və praktiki əhəmiyyəti göstərilməlidir.

Giriş hissəsi 4 səhifədən çox olmamaqla tərtib edilir.

Tədqiqatçının mövzu üzrə elmi əsərləri olduqda onların siyahısı verilir.

Əgər iş aprobasiya üçün qəbul edilmişsə bu zaman tətbiq üzrə akt və arayışlar təqdim olunur.

I Fəsil: Baxılan problemin metodoloji tədqiq seçimi əsaslandırılmış nəzəri konsepsiyaların icmalını əks etdirir.

Burada müxtəlif nəzəri konsepsiyalara baxılma və qiymətləndirmə, həll edilən problemə metodoloji yanaşma üstünlüyü sezilməli, tədqiqat obyekti və predmetinin dəqiq şərhi verilməli, çatışmamazlıqlar və zəif tərəflər öz əksini tapmalıdır. Tövsiyyə edilir ki, tədqiqat obyekti və predmetinin ölkə və xarici praktikada analoqlarının funksionallığı təhlil olunsun.

Bu bölümdə müəllif tədqiqat sahəsində mövcud aparatı təhlil edərək müəyyən anlayışları özünün tənqidi mülahizəli yanaşmasında qiymətləndirməlidir. Müəllif həmçinin burada metodoloji və təhlili əsaslandırmalarla müvafiq elmi və tədris ədəbiyyatlarında, dərslik və dərs vəsaitlərində əksini tapan nəzəriyyə və praktikanın başlıca inkişaf meyllərini də göstərməlidir.

II Fəsil: Konkret problem situasiyaların, proseslərinin və fəaliyyətlərin sistem göstəricilərinin təhlilinə həsr olunur.

Bu bölüm məzmunca üstün təhlili xarakter daşıyır. Konkret firma, sahə və sferanın timsalında fəaliyyət praktikası tədqiq olunur, hərəkət mexanizmi açılır və təhlil edilir.

Burada təhlil zamanı tədqiq olunan sahənin vəziyyətini və dinamikasını xarakterizə edən müasir statistik məlumatlardan, firma, sahə, region və sferanın hesabat materiallarından geniş istifadə olunur. Bu bölüm baxılan problemin hər bir tədqiqat istiqaməti üzrə konkret təhlil nəticələrini əks etdirməlidir.

Fəslin işlənməyə hazırlıq mərhələsində təhlilin müxtəlif metodlarından və həmçinin informasiyaların emalında xüsusi kompyüter proqramlarından istifadə olunmalıdır.

III Fəsil: Aparılan tədqiqatın nəticələri qiymətləndirilir və təqdim olunur.

Bölüm müəllif tərəfindən aparılan tədqiqatın təhlilinin əsaslandırılmış nəticələrini əks etdirməlidir. Burada tədqiq edilən sahənin fəaliyyət mexanizminin təkmilləşdirilməsini əsaslandıran metodik və təşkilati tədbirlər təklif olunur. Müəllif bu istiqamətdə özünün müəyyənləşdirdiyi həll mexanizmini bir və ya çoxvariantlı formada təqdim edir. Bu variantlar həlli verilən tədqiqat probleminin konkret nümunədə, müvafiq hesablama və qiymətləndirməsinə əsaslanır. Aparılmış hesablamalar müəllifə proseslərin təkmilləşməsi istiqamətində tədqiqat obyektinin təhlilindən irəli gələn praktiki tövsiyyələrin verilməsinə imkan yaratmalı, onların reallaşması tədbirlərinin səmərəsi əsaslandırılmalıdır.

Əsaslandırılaraq fəsillərin məzmunu təqdim olunan istiqamətlərdən fərqlənə bilər.

Fəsillərin daxili paraqrafların sayı 2-dən az ola bilməz. Zəruri elmi-metodoloji əsaslandırmalarla tədqiqatın fəsillərinin sayı artırıla bilər

Magistrant tədqiqat işinin hər bir bölümünə baxılan problemə uyğun ad verməlidir.

Tədqiq olunan problemin işıqlandırılması zamanı informasiya mənbələri mütləq göstərilməlidir. Bu zaman təqdim edilən istinadlar ədəbiyyat siyahısındakı nömrə sırasına uyğun mötərzə formasında verilir.

Nəticə və təkliflər: Tədqiqat işinin bu bölümündə aparılan təhlil üzrə əldə edilmiş konkret nəticələrin yığcam şərhi verilir. Bölmələr üzrə əldə edilmiş nəticələr elmi-təhlili, metodoloji əsaslandırılmış və məntiqi mahiyyətli səciyyə daşımalıdır. Bununla belə burada aparılan hesablama və təhlil üzrə yalnız yekun nəticələr və maraq doğuran müvafiq təklif və tövsiyyələr əks etdirilir. Ümumilikdə, nəticə və təkliflər müəllif tərəfindən qoyulan məqsəd və vəzifələrə uyğun olaraq problemin ardıcıl həllini cavablandırmalı və tədqiqatın dolğun şəkildə bitməsini qiymətləndirməlidir.

İstifadə olunmuş ədəbiyyat siyahısı: Tədqiqat işinin yazılması prosesində müəllif müvafiq istiqamətdə mövcud mənbələrə istinad etməyə borcludur. Bunun üçün də o, istinad etdiyi və sitat gətirdiyi ədəbiyyatın siyahısını tərtib etməlidir. Bu zaman ədəbiyyatın adı ilə yanaşı müəllifin adı, şəhər, nəşriyyat, buraxılış tarixi və səhifələrin sayı göstərilməlidir.

Əlavələr: dissertasiyada əsaslandırılaraq işin məzmununun tələblərindən irəli gələn bir və ya bir neçə əlavə verilə bilər. Burada əsas hissəyə daxil edilməyən informasiya materialları (*hesablat formaları, qrafiklər, sxemlər, bir sıra analitik cədvəllər, biznes-planların bölmələri və digər sənədlər*) təqdim olunur.

Əlavələr işin ümumi həcminin 15%-indən çox olmamalıdır.

Annotasiya rus və ingilis dilində olmaqla hər biri ayrıca səhifədə bir vərəq həcmində yazılır.

Spesifik terminoloqiyadan istifadə edildikdə dissertasiyada onların siyahısı **İxtisar siyahısı** başlığı altında ayrıca vərəqdə verilə bilər.

Magistr dissertasiyası pirnsipcə müvafiq tədqiqat konsepsiyasını əhatə etməlidir. Tədqiqat konsepsiyası magistr dissertasiyasının tərtibat sənədlərinin mühüm tərkib hissəsi olaraq mütləq tərtibat səciyyəsi daşıyır. (*Magistr dissertasiyasının tədqiqat konsepsiyasının nümunəsi əlavə 2-də verilmişdir*).

V. MAGİSTR DİSSERTASİYASI VƏ ONUN YAZILIŞ QAYDALARI

Dissertasiyanın mətni kompüterdə (*format Word*) çap olunur. Çap A4 (*210 x 297 mm*) formatlı ağ kağızın bir üzündə, mətndə boş sahələri göstərilməklə: sol boş sahə - 30 mm, sağ - 10 mm, yuxarı - 20 mm və aşağı 25 mm, ümumi həcm əlavələrlə birlikdə 75 səhifədən az olmamaq şərti ilə yerinə yetrilir. Sətrlər arası interval 1.5, şiriftlər Azərbaycan dilində «Times New Roman - 14», Rus və İngilis dilində də həmçinin «Times New Roman - 14» təyin edilir.

Dissertasiyadakı bütün xətlər, hərflər, rəqəmlər və işarələr aydın və eyni qara çalarlıqda olmalıdır.

Üz vərəqi dissetasiyanın birinci səhifəsidir və o, nömrələnmir.

Mündəricatda fəsil, paraqraf və bəndlərin başlıqlarının dissertasiyanın hansı səhifəsindən başlandığı göstərilir.

Əgər dissertasiyada spesifik terminoloqiya, həmçinin geniş yayılmamış ixtisarlar, yeni simvollar, işarələr və s. istifadə edilmişsə, onların siyahısı «İxtisar siyahısı» başlığı altında ayrıca vərəqlə dissetasiyanın əvvəlində verilməlidir. Siyahı sütün şəklində yazılır, sütunun sol tərəfində (*əlifba sırası ilə*) ixtisarlar, sağ tərəfində isə onun dəqiq açılışı verilir. Əgər dissertasiyada xüsusi terminlər, ixtisarlar, simvollar, işarələr üç dəfədən az təkrar edilirsə, onda siyahı tərtib edilmir.

Fəsillərin başlıqları mətnə simmetrik şəkildə, qaraldılmış böyük hərflərlə, paraqrafların başlıqları isə absazdan başlayaraq sətri hərflərdə yazılmalıdır (*birinci baş hərf istisna olmaqla*). Başlqların yazılışında sözlər sətirdən sətirə keçirilməməli, başlığın sonunda nöqtə qoylmamalıdır. Əgər başlıq iki cümlədən ibarətdirsə, onları nöqtə qoymaqla biri-birindən ayırmaq lazımdır.

«MÜNDƏRİCAT», «GİRİŞ», «NƏTİCƏ VƏ TƏKLİFLƏR», «İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT», «ƏLAVƏLƏR» sözləri dissetasiyanın uyğun struktur hissəsinin başlığı kimi qəbul edilməlidir.

Fəsil və paraqraflar, eləcə də başlıq və mətnin arasındakı məsafə 2,5 interval olmalıdır. Başlığın altından xətt çəkmək olmaz.

Hər fəsil yeni səhifədən başlanmalıdır.

Dissertasiyanın səhifələri ərəb rəqəmləri ilə nömrələnir. Səhifələr nömrələnərkən üz vərəqi də nəzərə alınır. Üz vərəqindən sonra gələn səhifədə «2» rəqəmi, sonrakı səhifələrdə isə ardıcıl nömrələr səhifənin yuxarı sağ küncündə çap olunur. Səhifələr (*əlavələr, arayışlar, aktlar və sair daxil olmaqla*) ardıcıl olaraq nömrələnir.

İstifadə olunmuş ədəbiyyat siyahısına daxil olan bütün nəşrlər ərəb rəqəmləri ilə ardıcıl nömrələnməlidir.

Fəsillər rum rəqəmləri ilə ardıcıl olaraq nömrələnir (*məsələn:* I FƏSİL). Mündəricat, giriş və nəticəyə nömrə qoyulmur.

Paraqrafların nömrəsi bir-birindən nöqtə ilə ayrılan fəslin və yarımfəslin nömrələrindən ibarətdir.

Ayrıca səhifədə yerləşən illüstrasiyalar da (*cədvəllər, dioqramlar, çertyojlar, sxemlər, qrafiklər*) dissertasiyanın səhifələri kimi nömrələnir. Ölçüləri A4 formatından böyük olan cədvəllər, şəkillər, çertyojlar bir səhifə kimi qəbul edilir və dissertasiyanın sonunda nəticədən sonra onların mətndəki sıra ardıcılığı ilə yerləşdirilir.

Dissertasiya işində sistemli rəqəmli materiallar bir qayda olaraq cədvəl quruluşunda tərtib edilir. Hər bir cədvəl müvafiq başlığa malikdir. «Cədvəl» sözü və başlıq böyük hərflə başlanmalıdır. Başlığın altından xətt çəkilməməlidir. Cədvəl, mətndə onun ilk xatırladılmasından sonra elə yerləşdirilir ki, dissertasiyanı döndərmədən və ya saat əqrəbi istiqamətində döndərdikdən sonra onu oxumaq mümkün olsun. Sətirlərin və sütunların sayı çox olan cədvəlləri hissələrə bölüb bir neçə səhifədə yerləşdirmək lazımdır. Əgər cədvəl iki və daha çox səhifədə yerləşirsə, «Cədvəl» sözü və onun nömrəsi cədvəlin birinci səhifəsinin sağ üst tərəfində bir dəfə göstərilir, qalan hissələrin müvafiq yerlərində «ardı» sözü yazılır. Əgər dissertasiyada bir neçə cədvəl varsa, onda «ardı» sözünün qarşısında cədvəlin nömrəsi yazılır. (*məsələn:* cədvəl 1.2-nin ardı).

Fəsillər daxilində verilən cədvəllər ardıcıl olaraq ərəb rəqmələri ilə nömrələnir (*əlavədə verilmiş cədvəllər istisna olmaqla*). Cədvəlin nömrəsi bir-birindən nöqtə ilə ayrılan fəslin nömrəsindən ibarətdir. (*məsələn:* Cədvəl 1.2). Əgər dissertasiyada cəmi bir cədvəl varsa, onu nömrələmək və «Cədvəl» sözü yazmaq lazım deyilldir.

Cədvəlin adı və nömrəsi cədvəlin üstündə yerləşdirilir. Nömrə sağ küncdə çap edilir. Cədvəllərin sütun və sətirlərinin başlıqları, onların içərisindəki məlumatlar üçün şriftin ölçüsü 12, sətirlərarası məsafə 1 interval olmalıdır.

Mətndə verilən düsturların sayı birdən artıq olduqda ərəb rəqmləri ilə ardıcıl nömrələnməlidir. Düsturun nömərsi bir-birindən nöqtə ilə ayrılmış fəslin və düsturun ardıcıl nömrələrindən ibarət olaraq onunla bir səviyyədə səhifənin sağ tərəfində mötərizənin içində yazılır (*məsələn:* /3.1/).

Düsturda rast gəlinən simvolların qiyməti və ədədi əmsalların izahı, onların düsturdakı yerləşmə ardıcıllığını nəzərə alaraq, bilavasitə düsturun altında verilir. Hər bir simvolun və ədədi əmsalın qiyməti yeni sətirdə yerləşdirilməlidir. İzahatın birinci sətri «Burada» sözündən başlamalıdır.

Tənliklər və düstürlar mətndən boş sətirlər vasitəsilə ayrılır. Hər düstürun üstündə və altında bir-iki boş sətir olmalıdır. Əgər tənlik bir sətirə yerləşməyibsə, onun ardı bərabərlik (=) və ya plyus (+), minus (-), vurma (x), bolmə (:) işarələrindən sonra yeni sətirə keçirilə bilər.

Dissertasiyanın mətnində istifadə olunmuş böyük həcmli mənbələr ədəbiyyat siyahısında əlifba sırası ilə yazılmalı və nömrələnməlidir. İstinad olunmuş mənbənin ədəbiyyat siyahısındakı nömrəsi mətndəki istinaddan sonra kvadrat və ya adi mötərizədə göstərilir (*məsələn:* [115] *və ya* /115/).

Dissertasiyanın mətnində böyük həsmli kitabların müxtəlif səhifələrinə bir neçə dəfə istinad olunduğu halda ədəbiyyat siyahısında bu mənbə yalnız bir dəfə göstərilir, lakin mətndəki istinaddan sonra əsərin siyahıdakı nömrəsi, cild (*çoxcildi əsərlər üçün*) və müvafiq səhifələr göstərilir (*məsələn:* [37, 301-328], [183, c.2, 136] və mətnin diğər bir yerində [44, 176], [183, c.1, 74-89] və sair.).

Dissertasiya işində istifadə edilmiş mənbələr çap olunduqları dillərdə (*əvvəlcə: Azərbaycan, sonra türk, rus, ingilis, fransız, ərəb və s.*) əlifba sırası ilə yazılır və ardıcıl nömrələnərək, siyahıda göstərilir. İstifadə edilmiş ədəbiyyat siyahısında son 5-10 ilin ədəbiyyatına üstünlük verilməlidir. İstinad olunan mənbələrin biblioqrafik təsviri onun

növündən asılı olaraq verilməlidir. Siyahıya daxil olan mənbələr haqqında məlumat aşağıdakı kimi göstərilir:

Kitabların (*monoqrafiya, dərsliklər və s.*) biblioqrafik təsviri müəllifin və ya kitabın adı ilə tərtib edilir, müəlliflər dörd nəfərədək oduqda müəllifin və ya müəlliflərin soyadı və ya inisialları veirlir.

Müəllifi göstərilmiyən və dörddən artıq müəllifii kitablar (*kollektiv monoqroafiya və dərsliklər*) kitabın adı ilə verilir.

Mətnin altında sətiraltı istinadlar məqsədəuyğyn deyildir.

VI. MAGİSTR DİSSERTASİYASI ÜZRƏ REFERATIN TƏRTİB EDİLMƏSİ

Magistrant müdafiə üçün 2 vərəq həcmində dissertasiya işinin bütün məzmun və kompozisiyada yığcam icmalını əks etdirən referat işləməlidir. Bu sənəd nəticə və təkliflərin nəşri, həmçinin müzakirə və müdafiə proseslərində başlanğıc məruzə materialı rolunu ifadə edir.

Referatda dissertasiyanın əsas ideyaları və nəticələri şərh olunmalı, onun yenilik dərəcəsi və tədqiqatın nəticələrinin elmi və praktiki əhəmiyyəti, aparılan tədqiqatlarda müəllifin şəxsi tövhəsi göstərilməlidir.

Referatın mətni kompüterdə çap olunur və sətrlər arası interval 1,5 götürülür. Digər müvafiq yazılış mexanikası isə dissertasiyanın ümumi tərtibat qaydaları ilə uyğunluq təşkil etməlidir.

Referat dissertasiyanın yazıldığı dildə olmalıdır. Müstəsna hallarda kafedranın razılığı ilə magistrant referatı xarici dillərdən birində yaza bilər və müdafiə zamanı suallara həmin dildə cavab verə bilər /*Əlavə 3-də magistr dissertasiyasının referatının nümənvi quruluş sxemi verilmişdir*/.

VII. MAGİSTRANTIN FƏRDİ İŞ PLANI

Magistr proqramını və eyni zamanda dissertasiya işini də ahəngdar və fasiləsiz yerinə yetirmək üçün magistrantlar fərdi iş planı işləyib hazırlamağa borcludurlar. Fərdi iş planının hazırlanmasında magistr proqramının rəhbəri magistranta hərtərəfli köməklik göstərir.

Magistrantın fərdi iş planı müvafiq ixtisas kafedrasının təqdimatı əsasında «Magistr hazırldlığı mərkəzi»nin direktoru tərəfindən təsdiq olunur. */ Əlavə 4, 5 və 5a-da magistrantın fərdi iş planının nümunəsi verilmişdir/*

VIII. MAGİSTR PROQRAMI VƏ ONUN RƏHBƏRİ

Magistr hazırlığı müvafiq magistr ixtisası proqamlarına uyğun aparılır.

Magistr proqramı mühüm tədris sənədi olmaqla aşağıdakıları əhatə edir:

I.Annotasiya - burada magistr proqramının qısa məzmunu əksini tapır.

II.Magistr proqramının tədris planı - burada magistr proqramının tədris və elmi-tədqiqat məzmunu verilir.

Proqramın tədris bölməsində tədris olunacaq ixtisas fənnlərinin təsnifatı və həcmi verilir.

Elmi-tədqiqat bölümündə isə elmi-tədqiqat işləri, elmi-tədqiqat və elmi-pedoqoji praktika və magistr dissertasiyasının hazırlığı üzrə istiqamətlər əks olunur.

Hər bir magistr proqramı bu proqramın məzmunu və keyfiyyətinə cavabdeh olan müvafiq buraxılış kafedrası tərəfindən müəyyən edilən və universitetin «Tədris-Metodik Şurası» tərəfindən təsdiq edilən proqram rəhbərə malikdir.

Magistr proqramı rəhbərinin vəzifə səlahiyyətlərinə aşağıdakılar daxildir:

- tədris prosesi boyu müvafiq ixtisas üzrə magistr hazırlanmasının keyfiyyətinə cavabdeh olur və magistr proqramının tədris və elmi hissəsinə rəhbərliyi həyata keçirir;
- keyfiyyətli təhsilin təminatı üzrə müvafiq proqram çərçivəsində universitetin müxtəlif kafedralarının fəaliyyətlərini kordinasiya edir;
- magistr proqramı üzrə tədris planı hazırlayır və bu proqrama daxil olunacaq xüsusi fənləri təyin edir;
- magistr dissertasiyasının ekspert qiymətləndirilməsi və onun tematikasının korrektə olunmasını təmin edir;
- magistr dissertasiyasının elmi rəhbərinin işinə nəzarəti həyata keçirir;
- dissertasiyanın bütün mərhələlərdə müdafiəsini təşkil edir;
- magistrantların elmi-pedoqoji və elmi-tədqiqat təcrübələrinin səmərəli keçrilməsinə nəzarət edir

Magistr proqramının rəhbəri müvafiq ixtisas üzrə professorlar, elmlər doktorları və aparıcı dosentlər tərəfindən seçilərək təyin edilir. Universitetin Elmi Şurasının qərarı ilə magistr proqramına rəhbərlik elmlər namizədləri tərəfindən də aparıla bilər.

Bir nəfər ən çoxu 5 magistr proqramına rəhbərlik edə bilər. Magistr proqramının rəhbəri eyni zamanda müvafiq proqram çərçivəsində reallaşdırılan dissertasiya işi üzrə elmi rəhbəri ola bilməz.

Bir magistr proqramına il ərzində magistrant sayından asılı olmayaraq rəhbər üçün pedoqoji yük 30 saatdır.

Bütün aspektlərdə magistr proqramına bilavasitə rəhbərlik və nəzarəti «Magistr hazırlığı mərkəzi»nin direktoru və buraxılış kafedralarının müdirləri həyata keçirirlər.

IX. ELMİ RƏHBƏRLƏ MAGİSTRANTIN BİRGƏ FƏALİYYƏT QAYDALARI

Magistr proqramı rəhbərinin təqdimatı əsasında tədris prosesində iştirak edən professor və aparıcı dosentlər sırasından «Magistr hazırlığı mərkəzi»nin Elmi Şurasının təqdimatı əsasında ADİU rektorunun əmri ilə magistr dissertasiyası üzrə elmi rəhbərlər təyin olunur.

Bir nəfər rəhbərə 5-dən artıq magistr dissertasiyası verilməməlidir.

Elmi rəhbərə il ərzində bir magistrant üçün pedoqoji yük 40 saat müəyyən edilir.

İxtisasları qovuşduran magistr dissertasiyası mövzusu üzrə müvafiq məsləhətçilər cəlb oluna bilər.

İl ərzində bir magistrant hazırlığına məsləhətçilər üçün pedoqoji yük 10 saat müəyyən olunur.

Məsləhətçilər müvafiq ixtisas kafedralarında təsdiq edilirlər.

Magistr dissertasiyasının elmi rəhbəri:

- magistranta dissertasiyanın bütövlükdə yerinə yetrilməsi müddətini əhatə edən fərdi iş qrafikinin işlənməsində köməklik göstərir;
- tədqiqat mövzusunun son seçimi istiqamətində magistranta yardım edir;
- zəruri olan əsas ədəbiyyat, arayış, arxiv materialları, layihə nümunələri və mövzu ilə bağlı digər istinad mənbələrinin seçilməsində magistranta tövsiyyələr verir;
- magistrantlarla müvafiq məsləhətləşmələr təşkil edir və zəruri metodik yardımlar göstərir;
- yerinə yetirilən işin gedişinə və ayrı-ayrı bölmələrin hazırlanmasına nəzarət edir;

- ADİU-da, respublikada və ölkə hüdudlarından kənarda keçrilən müvafiq elmi-praktiki konfranslarda magistrantın iştirakı üçün təşəbbüs və səy göstərir, bu istiqamətdə ona zəruri olan köməkliklər edir;
- dissertasiya işinin müdafiyəyə buraxılması və buraxılmaması barədə yazılı rəy təqdim edir;
- magistr dissertasiyasının prezentasiyası üzrə magistranta lazimi məsləhətlər verir;
- magistr dissertasiyası üçün kənar rəylərin alınmasında magistranta kömək edir;
- ixtisas kafedralarında görülmüş işlər haqqında müvafiq hesabatlar verir.

Elmi rəhbərlə ilk konsultasiya dissertasiya mövzusu təsdiq edildikdən sonra, I semestrdə gerçəkləşməyə başlanmalıdır. Bu vacib görüşdə dissertasiya mövzusu və magistrant tərəfindən onun öncədən hazırlanmış açıq geniş planı müzakirə olunur. Bundan sonra dissertasiya işinin planı elmi rəhbərin və müvafiq kafedra müdirinin imzaları ilə proqram direktoruna təqdim edilir */Əlavə 6-də magistr dissertasiyasının nümunəvi iş planı verilmişdir/*

Dissertasiya işinin planının təqdimatından sonra magistrant dissertasiya işi üzərində tərtib edilmiş plan-qrafik əsasında sərbəst çalışır və hər ay elmi rəhbərlə görüşlər keçirərək ondan lazımı məsləhətlər alır.

Dissertasiya işinin plan-qrafiki üzrə fəaliyyət magistr proqramı rəhbəri tərəfindən nəzarətə götürülür və imzalanır. */Əlavə 7 və 7a-da magistr dissertasiyası üzərində işin plan-qrafikinin nümunəsi verilmişdir/*.

Magistrant dissertasiya işini IV semestrdə, 15 mart tarixinə qədər tamamlayaraq onu referatla birlikdə elmi rəhbərə təqdim edir. Elmi rəhbər işi yoxlayıb bəyəndikdən sonra onu imzalayır, özünün yazılı rəsmi rəyi və digər müvafiq sənədlərlə birlikdə dissertasiyanı ixtisas

kafedrasında ilkin müzakirə üçün proqram rəhbərinə təqdim edir. Rəydə dissertasiyanın bütün bölmələri üzrə görülmüş iş səciyyələndirilir və alınan nəticələrin doğruluğu əsaslandırılır.

Qiyabi təhsil sistemi magistrantları dissertasiya işini tamamlayaraq bütün lazımı sənəd və materiallarla birlikdə III kursun V semestrində, 15 noyabr tarixinə qədər elmi rəhbərə təqdim etməlidirlər. Elmi rəhbər 2 həftə ərzində özünün yazılı rəsmi rəyi və digər müvafiq sənədlərlə birlikdə dissertasiyanı ixtisas kafedrasında ilkin müzakirə üçün proqram rəhbərinə təqdim etməlidir.

Dissertasiya işini təsbit olunmuş müddətlərdə və yazılış tələbləri qaydasında elmi rəhbərə təqdim etməyən magistrantlar barəsində magistr proqramı rəhbərinə yazılı məlumat verilir.

X MAGİSTR DİSSERTASİYASININ İXTİSAS KAFEDRASINDA İLKİN MÜZAKİRƏSİNİN TƏŞKİLİ

Magistr proqram rəhbəri aprel ayı ərzində dissertasiya işinin kafedrada müzakirəsini təşkil edir.

İxtisas kafedrası aşağıdakı hallarda dissertasiya işinin müdafiəyə buraxılmaması haqqında qərar qəbul edir.

- müvafiq təqdimat müddətlərinin gecikdirilməsi;
- dissertasiya işinin tərtibat qaydalarına əməl olunmaması;
- elmi rəhbərin mənfi rəyi.

Dissertasiya işini təsbit edilmiş müddətlərdə və yazılış tələbləri qaydasında yerinə yetirməyən magistrantlar barəsində magistr proqramı rəhbərinin təqdimatı əsasında ixtisas kafedralarında müvafiq qərar qəbul olunur.

İxtisas kafedraları magistr dissertasiyasının qəbul edilməməsi barəsində «Magistr hazırlığı mərkəzi»nə yazılı məlumat verməlidirlər.

Dissertasiya ixtisas kafedrasında proqram və elmi rəhbərin iştirakı ilə müzakirə edilir və qərar protokol qaydasında rəsmiləşdirilir. Protokolda dissertasiya işinin müdafiyəyə tövsiyyə olunub-olunmaması haqqında rəy-qərar öz əksini tapır. Bundan sonra dissertasiya işi ixtisas kafedrasında keçirilmiş müzakirənin protokolundan çıxarış və digər müvafiq sənədlərlə birlikdə «Magistr hazırlığı mərkəzi»nə təqdim edilir. Təqdim olunmuş materiallar və magistrantın tədris planlarının yerinə yetrilməsi əsasında «Magistr hazırlığı mərkəzi»nin direktoru magistrantın işinin açıq müdafiyəyə buraxılıb buraxılmaması haqqında disertasiyanın titul vərəqində müvafiq qeyd aparır.

«Magistr hazırlığı mərkəzi»ndə işin açıq müdafiyəyə buraxılmaması haqqında qərar qəbul edərkən aşağıdakılar əsas götürülür:

- müvafiq təqdimat müddətlərinin gecikdirilməsi;
- dissertasiya işinin müəyyən edilmiş standartlarına və tərtibat qaydalarına əməl olunmaması;
- ixtisas kafedrasının mənfi qərarı;
- magistrantın tədris planında nəzərdə tutulan bütün tələbləri yerinə yetirməməsi;
- müqavilə öhdəlilklərinin yerinə yetirilməməsi.
- dissertasiya adının rəsmi təsdiq edilmiş ilkin adından fərqləndikdə.

«Magistr hazırlığı mərkəzi»ndə işin açıq müdafiyəyə buraxılması məqsədəuyğun hesab olunmadıqda bu məsələyə magistrantın proqram və elmi rəhbərlərinin birgə iştirakı ilə baxılır və müvafiq qərar qəbul edilir.

Qiyabi təhsil sistemi magistrantlarının dissertasiya işinin ixtisas kafedralarında müzakirəsi III kursun V semestrində dekabr ayında keçirilir.

XI. MAGİSTR DİSSERTASİYASININ RƏYLƏRİNİN VERİLMƏSİ QAYDASI

Magistr dissertasiyası mütləq kənar rəsmi rəy verən şəxsə - rəyçiyə göndərilməlidir. İxtisas kafedrası açıq müdafiyəyə buraxılmış magistr dissertasiyasını müdafiyəyə ən azı 15 gün qalmış rəsmi rəyçiyə göndərir.

Rəsmi rəyçi kimi idarə və təşkilatlarda, elmi təsisatlarda çalışan mütəxəssislər, Azərbaycan Dövlət İqtisad Universitetində tam, yarım ştatda və əvəzçilik qaydasında işləyən, digər ali təhsil müəssisələrinin professor və müəllim heyəti və habelə magistrantı işə götürən təşkilatın rəhbər və mütəxəssisləri də çıxış edə bilərlər.

Magistr dissertasiyası universitet daxilində və universitetdən kənar rəsmi rəyçiyə göndərilən zaman məktub tərtib edilir və resenzentdən rəyin tərtibində aşağıdakı tələblərə əməl olunması xahiş edilir:

- mövzunun aktuallığı və onun praktiki əhəmiyyəti;
- yerinə yetrilmiş işin yeniliyi;
- işin keyfiyyətinin dəyərləndirilməsi;
- dissertasiyada müasir tədqiqat metodlarından və yeni metodikadan istifadə olunması;
- müəllif tərəfindən səmərəlilik, idarəetmə və digər rasionallığın artırılmasına yönəlmiş konkret işləmələr və tədqiqat sahəsində onun mümkün reallaşmasının qiymətləndirilməsi.

Bundan başqa rəydə resenzent öz baxışları müqabilində ayrıca irad və nöqsanları da göstərə bilər.

Rəyin sonunda resenzent magistr dissertasiyasının möcud tələblərə uyğunluğunu və onun ümumi qiymətləndirilməsini göstərməlidir.

Rəsmi rəyçinin imzası onun adı, soy adı və atasının adı, iş yeri, vəzifəsinin tam göstərilməsi ilə müşaiyət olunmalıdır.

Rəy resenzentin çalışdığı təşkilatın blankında çap olunmalı və müvafiq möhürlə təsdiq edilməlidir.

Rəsmi rəyçinin yazılı rəyi müdafiəyə azı 5 gün qalmış 1 nüsxəsi magistranta, digər 1 nüsxəsi isə «Magistr dissertasiyasının müdafiəsi üzrə ixtisaslaşdırılmış Elmi Şura»ya təqdim olunmalıdır. Rəsmi rəy mənfi olduqda resenzentin müdafiədə iştirakı vacibdir.

«Magistr hazırlığı mərkəzi»nin direktoru və magistr proqramının rəhbəri zərurət olduqda rəsmi rəyçi sayını artırılması tövsiyyəsi ilə çıxış edə bilərlər.

Magistrant müdafiyəyə qədər resenzentin rəyində göstərilən irad və nöqsanları qeydə almalı və müdafiə prosesində onlara cavab verməlidir.

XII. MAGİSTR DİSSERTASİYASININ MÜDAFİƏ ŞURASINA TƏQDİM EDİLMƏSİ QAYDASI

Magistr dissertasiyasının müdafiəsini «Magistr dissertasiyasının müdafiəsi üzrə ixtisaslaşdırılmış Elmi Şura» */bundan sonra* Şura/ aparır. Şuralar «Magistr hazırlığı mərkəzi»nin direktorunun vəsatəti əsasında universitet rektorunun əmri ilə ayrı-ayrı istiqamətlər və ixtisaslar üzrə bir təqvim ili müddətində yaradılır. Tərkibinə müvafiq kafedraların müdirləri və həmin sahə üzrə elmlər doktorları və elmlər namizədləri daxil edilən Şuralar 7-11 nəfər üzvdən ibarət təşkil olunur. Şuranın sədri Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən təyin edilir.

Bir qayda olaraq dissertasiya işlərinin Şurada müdafiəsi əyani təhsil alanlar üçün II kursun IV semestrində may-iyun, qiyabi təhsil alanlar üçün III kursun V semestrində yanvar-fevral aylarında keçirilir. ADİU-nun rektorunun əmri ilə bu müddətlər dəyişdirilə bilər.

Magistrant müdafiəyə azı 3 gün qalmış Şuraya aşağıdakı sənədləri təqdim edir:

- Ərizə /«*«Magistr hazırlığı mərkəzi»nin» razılıq dərkənarı ilə*/;
- İxtisas kafedrasının dissertasiya işinin müdafiəyəyə tövsiyyə edilməsi haqqında qərarı;
- Elmi rəhbərin rəyi[1];
- Magisr dissertasiyası - 1 nüsxə /*cildlənmiş*/;
- Referat - 1 nüsxə;
- Rəsmi rəyçini rəyi;
- Magistrantın fərdi iş planının surəti.

Şuranın katibi sənədləri yoxlayaraq qəbul edir. Referatda müdafiənin vaxti və keçiriləcəyi yer barədə müvafiq qeydlər aparır.

Müdafiə üçün tələb olunan sənədlər və materiallar magistrant tərəfindən vaxtında təqdim edilməzsə müdafiənin vaxtı yalnız üzürlü səbəblər olduqda müəyyən edilmiş qaydalara uyğun dəyişdirilə bilər. Bu qayda üzürlü səbəblər zəminində müəyyən edilmiş vaxt müddətlərində magistrantın müdafiədə iştirak etməməsinə də şamil olunur.

Müdafiə Şuranın açıq iclasında keçirirlir və onun üzvlərinin $^2/_3$ hissəninin iştiriak etdiyi iclas səlayihətli sayılır.

Şuranın iclasını bir qayda olaraq onun sədri aparır. Sədr olmadıqda onu müavin əvəz edir. Şədr və müavinin iştirak etmədiyi iclas təxirə salınır və ya universitetin rektoru şura üzvlərindən birini müvəqqəti sədr müavini təyin edir. Şuranın katibi iclasda iştirak etmədikdə sədr bu vəzifəni müvəqqəti olaraq üzvlərdən birinə həvalə edir.

Şuranın hər iclası 5 saat davam edə və hər bir iclasda 10-nadək dissertasiya işi müdafiə oluna bilər.

---

[1] Dissertasiya işi üzrə məsləhətçi təyin edildiyi təqdirdə onun da rəyi sənədlər toplusuna daxil edilməlidir.

Elmi rəhbərin və rəsmi rəyçinin iştirak etdiyi müdafiə üzrə iclasda müvafiq rəylərn oxunuşu birbaşa olaraq elmi rəhbər və rəsmi rəyçinin çıxışları ilə əvəz edilir.

Şura iclasının gedişi müvafiq protokolla rəsmiləşdirilir.

Şurada hər magistr dissertasiyasının müdafiəsi üçün 45 dəqiqə vaxt ayrılır. Bu vaxtın 10-15 dəqiqəsi magistranta işin məzmunu və onun nəticələrinin təqdimatı üçün verilir.

Magistrant müdafiyəyə hərtərəfili və ciddi hazırlaşmalı, illyüstrasiya materialları da daxil etməklə çıxışının tezislərini hazırlamalıdır.

Magistrant çıxışını kompüter prezentasiya proqramı olan «Power Point» də nümayiş etdirməlidir. Çıxış üçün lazımı avadanlığı «Magistr hazırlığı mərkəzi» təqdim edir.

Tədqiqat nəticələrinin prezentasiyasının strukturunu aşağıdakılar əhatə edir:

- işin adı;
- magistrantın adı, soy adı və atasının adı;
- elmi rəhbərin adı, soy adı və atasının adı;
- tədqiqatın məqsədi və problematikası;
- tədqiqat probleminin yeniliyi və qoyulmuş vəzifələr;
- nəzəri konsepsiyaların qısa şərhi;
- tədqiqatın əsaslandırılmış metodologiyası, məntiqi və metodları;
- təhlili araşdırmalar;
- nəticələr və təkliflər;
- işlənmiş təkliflər;
- nail olunmuş və gözlənilən iqtisadi effektin qiymətləndirilməsi.

Magistrant resenzentlərin, magistr dissertasiyasının müdafiəsi üzrə Şuranın üzvlərinin irad və suallarına cavab verməyə hazır olmalıdır. Çıxış üçün magistrant üstün olan zəruri və müvafiq material seçməlidir. Məruzə tədqiqat işindən çıxaraq müəllifin mühüm hesab etdiyi müvafiq metodoloji şərhdə təqdim olunmalıdır.

Çıxışından sonra disertasiya üzrə rəsmi rəylər oxunur və magistrant onlara cavab verir. Magistrant iradlarla razılaşa bilər və ya onları əsaslandırılmış şəkildə rədd edə bilər.

Müdafiə prosesində magistranta dissertasiya işinin məzmunu ilə bağlı Şura üzvüləri də suallar verirlər. Cavablar qısa və motivləşdirilmiş olmalıdır. Müvafiq cavablandırmalardan sonra isə elmi rəhbərin rəyi dinlənilir.

Dissertasiyanın müdafiəsi qurtardıqdan sonra Şuranın üzvüləri mövcud qaydada səsvermə keçirirlər. İclasda iştirak edən Şura üzvülərindən yarıdan çoxu magistr dərəcəsinin verilməsi lehinə səs verdikdə İxtisaslaşdırılmış Şuranın qərarı ilə magistr dərəcəsi verilir.

Magistr dissertasiyasının müdafiəsi üzrə qərar mənfi olduqda magistrant 2 həftə ərzində Şura qarşısında təkrar müdafiə vəsatəti ilə çıxış edə və ya özünün nöqteyi-nəzərindən ədalətsizlik motivlərini əsaslandırmaqla apellyasiya şikayəti edə bilər. Apellyasiya şikayətinə «Magistr hazırlığı mərkəzi»nin nəzdində yaradılmış apellyasiya komissiyasında baxılır.

Dissertasiya müdafiəsi nəticəsində mənfi qərar qəbul edildikdən sonra bir aydan tez olmayan müddətdə dissertasiya işi yenidən işlənilmiş formada təkrar müdafiyəyə təqdim edilə bilər.

Şura yenidən mənfi qərar qəbul etdikdə onun yeni mövzuda təkrar müdafiəsinə */2 dəfədən çox olmamaqla/* növbəti tədris ilinin məzunlarının dissertasiya müdafiəsi üçün müəyyən olunmuş müddətdə icazə verilir.

Təkrar müdafiədə disertasiya müvəffəqiyyətlə müdafiə edilmədikdə, magistrantın müvafiq proqramı dinlədiyi haqqında arayış verirlir.

Magistr dissertasiyasının müdafiəsinin nəticələri müsbət olduqda Şura magistranta müvafiq ixtisas üzrə magistr rütbəsinin və magistr ali təhsilinin dövlət diplomunun verilməsi haqqında qərar qəbul edir. */Əlavə 8 və 8a-da*

magistr dissertasiyasının bütün mərhələrdə tərtibat şərtləri və keçid müddətlərini əks etdirən sxem verilmişdir/.

Müdafiədən sonra dissertasiya «Magistr hazırlığı mərkəzi»ndə saxlanılır.

Üzürsüz səbəbə görə dissertasiya işinin müdafiəsi üçün ayrılmış vaxtda müdafiə prosesində iştirak etməyən magistrantlar təsbit olunmuş qaydalara uyğun olaraq universitetdən xaric edilirlər. Üzürlü səbəblər müqabilində isə müdafiəyə 2 dəfədən çox olmamaqla növbəti tədris ilində, məzunlarının dissertasiya müdafiəsi üçün müəyyən olunmuş müddətində icazə verilir.

XIII. MAGİSTR DİSSERTASİYASININ QİYMƏTLƏNDİRİLMƏSİ METODİKASI (MEYARLARI)

Magistr dissertasiyasının qiymətləndirilməsi zamanı qiymətləndirmə ədalətliliyi təmin etməli və müvafiq meyarlara əsaslanmalıdır. Qiymətləndirməyə sərt meyarlarla yanaşmaq məqsədəquyğun hesab edilmir.

Dissertasiya işinin qiymətləndirilməsi zamanı məruzənin məntiqi quruluş və ardıcıllıqda təqdimatına, müdafiə prosesində şərh edilən materialın illüstrasiyalığına, məzunun sual və iradları cavablandırma arqumentliliyinə, habelə nəticələrin elmi-təcrübi əhəmiyyətliliyinə xüsusi diqqət yetirilir. Qiymətləndirmə zamanı həmçinin dissertasiyanın tərtibat mexanikasının, mövzu ilə əlaqədər dərc olunmuş elmi əsərlərin kəmiyyət və keyfiyyəti, işin aprobasiyası da nəzərə alınır. /*Magistr dissertasiyasının qiymətləndirilməsi metodikası ilə bağlı tövsiyyə xarakterli meyar əsaslandırmaları əlavə 9-da verilmişdir/*.

XIV. DİSSERTASİYA İŞİNİN NƏTİCƏLƏRİNİN TƏSRÜBƏDƏ TƏTBİQİ VƏ İSTİFADƏ OLUNMASI

Üstün uğurlu dissertasiya işlərinin nəticələri müəllifin razılığı əsasında universitetin elmi məcmuəsində nəşr və digər sahələrdə tətbiq üçün tövsiyyə olunur. Müstəsna hallarda əsaslandırılaraq Magistr dissertasiyasının müdafiəsi üzrə ixtisaslaşdırılmış şurası və universitet Elmi Şurasının qərar ilə (*genişləndirmə və təkmilləşdirilmə şərti ilə*) işin namizədlik dissertasiyası kimi müdafiə edilməsi təklifi də irəli sürülə bilər.

ƏLAVƏLƏR

Əlavə 1

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ
«MAGİSTR HAZIRLIĞI MƏRKƏZİ»

Əlyazması hüququnda

Təsdiq edirəm
«Magisr hazırlığı mərkəzinin» direktoru
_____ (A.S.A., elmi dərəcə və elmi ad)
«____» «_____» **200_** il

_____
/A.S.A./

«_____»

mövzusunda

MAGİSTR DİSSERTASİYASI

İstiqamətin şifri və adı

İxtisasın şifri və adı

Dissertasiya işi müdafiyəyə buraxılmışdır

Elmi rəhbər
(A.S.A., elmi dərəcə və elmi ad)
_____
_____

Magistr proqramının rəhbəri
(A.S.A., elmi dərəcə və elmi ad)
_____
_____

Kafedra müdiri(A.S.A., elmi dərəcə və elmi ad)_____
_____

BAKI 200_

Əlavə 2

MAGİSTR DİSSERTASİYASINDA TƏDQİQAT KONSEPSİYASI[2]

Magistrant /A.S.A/._____

Magistr proqramı_____

Seçilmiş tədqiqat mövzusunun adı_____

Mövzununm aktuallığının əsaslandırılması və məqsədi_____

_____

Tədqiqatın vəzifələri:

1._____
2._____
3._____

(*ardıcıllıqla tədqiqat mərhələlərini qeyd etmək*)

Tədqiqat hansı regionun, ölkənin və ya təşkilatın materialları əsasında aparılacaqdır?

_____

(*təşkilat, region, sahə və sair*)

Tədqiqatda istifadə ediləcək konseptual modellər (*məsələn: menecment, iqtisadi maliyyə və s.*)

_____

(*modellər iqtisadiyyat, maliyyə, menecment və s. üzrə müvaiq ədəbiyyatlara əsaslanmalıdır*)

Hansı tədqiqat metodlarından istifadə olunacaqdır?

_____

Magistrant_____*/imza, tarix/*
(A.S.A)

Elmi rəhbər_____*/imza, tarix/*
(A.S.A., elmi dərəcə və elmi ad)

[2] Konsepsiya əlavəsini tərtib etmək üçün elmi rəhbər və magistrant mövzuya aid ədəbiyyatla dərindən tanış olmalıdır.

Əlavə 3

MAGİSTR DİSSERTASİYASININ REFERATININ QURULUŞ SXEMİ

Mövzunun aktuallığı_____

Tədqiqatın predmet və obyekti_____

Tədqiqatın əsas məqsədi və vəzifələri_____

Tədqiqatın informasiya bazası və işlənməsi metodları_____
_____

Tədqiqatın elmi yeniliyini_____

Tədqiqatın praktiki əhəmiyyəti_____

Dissertasiya işinin strukturu_____

Dissertasiya işinin I Fəsilində baxılan məsələlər_____
_____

Dissertasiya işinin II Fəsilində baxılan məsələlər_____
_____

Dissertasiya işinin III Fəsilində baxılan məsələlər_____
_____

Nəticə və təkliflər

Magistrant_____*/imza/*
(A.S.A)

Elmi rəhbər_____*/imza, tarix/*
(A.S.A., elmi dərəcə və elmi ad)

Əlavə 4

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ
«MAGİSTR HAZIRLIĞI MƏRKƏZİ»

«Təsdiq edirəm»
«Magistr hazırlığı mərkəzi»nin direktoru
_____/A.S.A./
«____» «_____»20__ il.

MAGİSTRANTIN FƏRDİ İŞ PLANI

Magistrant_____
(A.S.A)
Magistr dissertasiyasının mövzusu_____
Elmi rəhbər _____
(A.S.A., elmi dərəcə və elmi ad)
Məsləhətçi_____
(A.S.A., elmi dərəcə və elmi ad)
Kafedra_____
İstiqamət_____
(adı aə kodu)
İxtisas /Magistr proqramı/_____
(adı və şifri)
_____
Magistr proqramının rəhbəri_____
(A. S.A., elmi dərəcə və elmi ad)
Magistraturada təhsil aldığı dövr_____
Magistr dissertasiyasının kafedraya təqdim edilməsinin son müddəti_____

Magistrant (A.S.A.)_____*imza, tarix*
Magistr proqramının rəhbəri (A.S.A., elmi dərəcə və elmi ad)_____*imza, tarix*
Elmi rəhbər (A.S.A., elmi dərəcə və elmi ad)_____*imza, tarix*

Əlavə 5

PEŞƏ-TƏHSİL PROQRAMININ MƏZMUNU

S\s	Fənn, təcrübələrin və digər tədris predmetlərinin adı	Auditoriya saatlarını miqdarı	Attestasiya forması	Attestasiyanın planlaşdırılan müddəti	Attestasiya haqqında qeyd (qiymət və tarix)
I. S E M E S T R					
1.					
2.					
3.					
…	Cəmi				
II. S E M E S T R					
1.					
2.					
3.					
…	Cəmi				
	Elmi-tədqiqat praktikası 4 həftə				
III. S E M E S T R					
1.					
2.					
3.					
…	Cəmi				
IV. S E M E S T R					
1.					
2.					
3.					
…	Cəmi				
	Elmi-pedoqoji praktika 4 həftə				
Cəmi tədris üzrə yekun					

Magistrant (A.S.A.)_____*imza, tarix*

Magistr proqramının rəhbəri (A.S.A., elmi dərəcə və elmi ad)_____*imza, tarix*

Elmi rəhbər (A.S.A., elmi dərəcə və elmi ad)_____*imza, tarix*

Əlavə 5a

PEŞƏ-TƏHSİL PROQRAMININ MƏZMUNU
(qiyabi təhsil alanlar üçün)

S\s	Fənn, təcrübələrin və digər tədris predmetlərinin adı	Auditoriya saatlarının miqdarı	Attestasiya forması	Attestasiyanın planlaşdırılan müddəti	Attestasiya haqqında qeyd (qiymət və tarix)
I. S E M E S T R					
1.					
2.					
3.					
…	Cəmi				
